# Azərbaycanın Baş naziri və Türkiyənin vitse-prezidenti Şuşa şəhərində olublar





Noyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Şuşa şəhərində olublar.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov və Türkiyənin vitse-prezidenti F.Oktay Şuşada mədəni abidələri və şəhərin görməli yerlərini ziyarət edib, o cümlədən Şuşa şəhər meydanı, Yuxarı Gövhər ağa məscidi, Cıdır düzü və Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksi ilə tanış olublar.




Daha sonra Şuşa şəhərində Ə.Əsədov və F.Oktay Bakıda keçirilmiş Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasının nəticələrinə dair mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan.- 2022.-6 noyabr.- S.3.